# «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın və «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyul tarixli 2292 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya» çərçivəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, bu sahədə normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətinin açıq hökumət prinsiplərinə uyğunlaşdırılması, qərarların qəbulu prosesində ictimaiyyətin iştirakının genişləndirilməsi və şəffaflığın artırılması, Azərbaycan Respublikasının bu sahədə beynəlxalq öhdəliklərinin icrasının təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı» təsdiq edilsin (əlavə olunur).

2. «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı» təsdiq edilsin (əlavə olunur).

3. Mərkəzi və yerli icra hakimiyyəti orqanları:

3.1. «Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nda və «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»nda (bundan sonra — «Fəaliyyət Planları») nəzərdə tutulan tədbirlərin icrası barədə hər il yanvarın 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabatlarını təqdim etsinlər;

3.2. Fəaliyyət Planlarının icrası üzrə illik iş planlarını təsdiq etsinlər və bu barədə məlumatı Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim etsinlər.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası Fəaliyyət Planlarının yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyətini mütəmadi

təhlil etsinlər və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsinlər.

5. **Azərbaycan Respublikasının Hesablama Palatasına**, Baş Prokurorluğuna, İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana), Məhkəmə-Hüquq Şurasına, Azərbaycan Respublikasının məhkəmələrinə, yerli özünüidarə orqanlarına tövsiyə edilsin ki, Fəaliyyət Planlarında nəzərdə tutulan tədbirlərin icrasını təmin etsinlər.

6. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına tövsiyə edilsin ki, Fəaliyyət Planlarının icrasının dəyərləndirilməsi prosesinə vətəndaş cəmiyyəti institutlarını cəlb etsin və Fəaliyyət Planlarının icrası üzrə görülən işlər barədə ictimaiyyətə mütəmadi olaraq məlumat versin.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 5 sentyabr 2012-ci il***

***№ 2421***

**“Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün**

**Milli Fəaliyyət Planı”ndan**

**ÇIXARIŞ**

**6. Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması**

***Görüləcək işlər və nəticə indikatorları:***

6.1 Dövlət maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi və maliyyə nəzarəti üzrə daha təkmil hüquqi baza təmin etmək üçün maliyyə nəzarəti haqqında qanun layihəsinin hazırlanması

*İcra: Nazirlər Kabineti,* ***Hesablama Palatası****, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi — 2013-2014-cü illər*

6.2 Maliyyə nəzarəti orqanlarının hesabatlılığının artırılması və həmin orqanlar tərəfindən maliyyə nəzarətinin nəticələri barədə təhlillərin və statistik məlumatların ictimaiyyətə təqdim edilməsi

*İcra: Nazirlər Kabineti,* ***Hesablama Palatası****, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi — 2013-2015-ci illər*

6.3 Maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət («e-nəzarət») sisteminin yaradılması

*İcra: Nazirlər Kabineti,* ***Hesablama Palatası****, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi — 2013-2014-cü illər*

6.4 Maliyyə nəzarəti orqanlarının qarşılıqlı fəaliyyətinin təmin edilməsi, onlar arasında vahid elektron informasiya bazasının yaradılması, informasiya mübadiləsinin təşkili

*İcra: Nazirlər Kabineti,* ***Hesablama Palatası****, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi — 2013-2014-cü illər*

6.5 Dövlət müəssisələrinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq tərtib edilmiş maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi

*İcra: Nazirlər Kabineti,* ***Hesablama Palatası****, Maliyyə Nazirliyi — 2013-2014-cü illər*

6.6 Yerli büdcənin tərtibinə və icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna, habelə bələdiyyələrin maliyyə hesabatlarının vaxtında təsdiq olunmasına nəzarət mexanizmlərinə və prosedurlarına dair təkliflər hazırlanması

*İcra: Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi,* ***Hesablama Palatası*** *— 2013-cü il*

# “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”ndan

# ÇIXARIŞ

**13. Audit xidmətlərinin təkmilləşdirilməsi**

***Görüləcək işlər və nəticə indikatorları:***

13.4 Daxili audit haqqında qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması

*İcra: Nazirlər Kabineti, Maliyyə Nazirliyi,* **Hesablama Palatası,** *Auditorlar Palatası — 2013-cü il*

**14. Dövlət satınalmalarının təkmilləşdirilməsi və şəffaflığın artırılması**

***Görüləcək işlər və nəticə indikatorları:***

14.2 Dövlət satınalma müqavilələrinin icrasına, o cümlədən həmin müqavilələr üzrə ödənişlərə nəzarətin təkmilləşdirilməsi

*İcra: Satınalmalar üzrə Dövlət Agentliyi, Maliyyə Nazirliyi,* ***Hesablama Palatası*** *— 2013-2014-cü illər*